“Baku Crystal Hall”da keçirilən intellektual oyunlarda ölkəmizin 15 bölgəsini təmsil edən 30 komanda mübarizə aparır.

İlk oyunda təhsil naziri Mikayıl Cabbarov və digər rəsmi şəxslər iştirak edib.

Oyunların aparıcısı və baş hakimi DJ Fateh ölkədə geniş populyarlıq qazanmış bu yarışma və onun keçirilmə qaydaları haqqında məlumat verib. Breyn-rinqin 4-cü mövsümünün başlandığını bildirən baş hakim dəstəyə görə Heydər Əliyev Fonduna, Təhsil Nazirliyinə, Gənclər və İdman Nazirliyinə təşəkkür edib.

Oyunlar 4 ay ərzində keçiriləcək və 15-ci oyunda Təhsil Nazirliyi tərəfindən təsis olunmuş “Bilik kuboku”nun sahiblərinin adları məlum olacaq. Həmin oyunda sentyabr, oktyabr və noyabr aylarının çempionları iştirak edəcək.

“Bilik kuboku”nun qalibi Təhsil Nazirliyi tərəfindən elekton kitab oxuyucusu ilə mükafatlandırılacaq. Eyni zamanda qalib komandaya sponsorlar planşetlər və hesabında 3 min AZN olan plastik kart təqdim edəcəklər.

İlk seçim görüşündə “Bilik kuboku”nun son sahibi “Norm sement” komandası ilə “Fortuna” komandası qarşılaşıb. “Norm sement” rəqiblərinə 5-1 hesabı ilə qalib gəlib.

İkinci seçim görüşü “BDU” ilə “Aviasiya Akademiyası” komandaları arasında olub. Gərgin keçən mübarizə “BDU”nun üstünlüyü ilə başa çatıb.

Birinci final qarşılaşmasında “Norm sement” “BDU” komandasını üstələyərək qalib gəlib. Növbəti final görüşü də bu iki komanda arasında baş tutub və birincinin qələbəsi ilə başa çatıb. Beləliklə, “Norm sement” sentyabr ayının finalında oynamaq hüququ qazanıb.